40 (1397) 9-15 oktyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet
Qiyməti razılaşma yolu ilə
Qəzet 1999-cu ildən çıxır

## İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ PRİNSİPLƏRİ ƏSASINDA İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Qordan Yandrokoviç parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi üçün imkanların mövcud olduğunu vurğuladı. Hər iki ölkədə parlamentlərarası dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edən qonaq dostluq qrupları ilə yanaşı, müxtəlif parlament komitələri arasında da əməkdaşlığın vacibliyinə toxunub.
Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb.
Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib.
Xorvatiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını daim dəstəkləməsi vurğulanıb.
Görüşdə ikitərəfli münasibətlərin dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiyi bildirilib, enerji, sərmayələr, turizm və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu diqqətə çatdırılıb, ölkələrimizin beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.

**2 oktyabr 2025-ci il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

* * * *

Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * * *

Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.

* * * *

Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * * *

Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib.

* * * *

Kopenhagendə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti ilə görüşü olub.

* * * *

Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə İtaliya Nazirlər Şurasının sədri ilə görüşü olub.

* * * *

Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

* * * *

Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.



# TÜRK DÜNYASINDA YENİ MƏRHƏLƏ: QƏBƏLƏ SAMMİTİ

## "Bu gün Türk Dövlətləri Təşkilatı ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır"



Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında söyləyib.
Təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artmasının məmnunluq doğurduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir".
Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında bu təşkilatı qlobal arenada vacib aktora çevirən amilləri sadalayıb. Dövlətimizin başçısı deyib: ***"Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir".***

## "Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək"

"İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək". Bunu Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında bildirib. Dövlətimizin başçısı qeyd edib ki, Vaşinqton Zirvəsi çərçivəsində ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırılıb.

## Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır

"Nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir". Bu sözləri Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında söyləyib. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlərin qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxardığını vurğulayan dövlətimizin başçısı deyib ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır.



## "Biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa yaşıl enerji dəhlizi üzərində işləyirik"

"Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpa olunan mənbələr hesabına təmin ediləcək".
Bu barədə Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında bildirib.
***"Hazırda biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa yaşıl enerji dəhlizi üzərində işləyirik"***, - deyə dövlətimizin başçısı əlavə edib.

## "Türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir"



"Bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında bildirib.
"Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir", - deyə dövlətimizin başçısı əlavə edib.
Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edib.
O, deyib: "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin keçirilməsini təklif edirik".

## "TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib"

"Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub".
Bu sözləri Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında söyləyib.
Bunun əsas hissəsinin Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayə olduğunu bildirən Prezident qeyd edib: "Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək".

# TÜRK DÜNYASINDA YENİ MƏRHƏLƏ: QƏBƏLƏ SAMMİTİ

## "Ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir"

Bunu Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında deyib.
1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulayan dövlətimizin başçısı gələn il birinci Qurultayın keçirilməsinin 100 illik yubileyinin TDT çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edib.

## "Biz dünyanın güclü dövlətləri ilə əməkdaşlığı davam etdirməliyik"

"Qədim ticarət mərkəzlərindən biri kimi tanınan Qəbələdə olmaqdan qürur duyuram. Bu qədim diyarın tarixi, mədəni irsi və inkişaf potensialı bizə türkdilli ölkələr arasında əməkdaşlığın dərin köklərə malik olduğunu bir daha xatırladır".
Bu sözləri Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə deyib.




"Ermənistanla imzalanmış bəyannamə regionda sülhün və sabitliyin bərqərar olması istiqamətində mühüm addımdır. Bu nailiyyət Azərbaycanın siyasi iradəsinin və liderliyinin bariz göstəricisidir.
Biz dünyanın güclü dövlətləri ilə əməkdaşlığı davam etdirməli və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın regionda sabitlik və tərəqqi uğrunda göstərdiyi səyləri yüksək qiymətləndirməliyik. Hesab edirəm ki, qarşılıqlı əməkdaşlığımız çərçivəsində daha sıx və müntəzəm görüşlər keçirilməlidir. Bu, bizim siyasi dialoqumuzun intensivləşməsinə və ortaq hədəflərimizin reallaşmasına əlavə təkan verəcək", - deyə Şavkat Mirziyoyev əlavə edib.

## "Qəbələ Bəyannaməsində TDT-nin regional sülhün təşviqində konstruktiv platforma kimi rolu vurğulanıb"

"Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü çərçivəsində türk dövlətləri arasında siyasi dialoqun dərinləşməsi və təkmilləşməsi, iqtisadi inteqrasiyanın gücləndirilməsi, nəqliyyat və enerji təhlükəsizliyin təşviqi, mədəni, humanitar əlaqələrin genişləndirilməsi, eləcə də regional və qlobal çağırışlara qarşı birgə fəaliyyətin vacibliyi barədə ətraflı fikir mübadiləsi aparılıb".
Bunu Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yekununa dair mətbuata bəyanatında deyib.
O qeyd edib ki, Zirvə Görüşündə növbəti bir il ərzində Azərbaycan Respublikasının təşkilata sədrliyi dövründə Türk dünyası birliyinin daha da güclənəcəyinə əminlik ifadə olunub. Toplantının yekununda dövlət və hökumət başçıları tərəfindən Qəbələ Bəyannaməsi qəbul olunub. Bəyannamədə Türk dünyasında həmrəyliyin daha da möhkəmləndirilməsi, qarşılıqlı etimadın gücləndirilməsi, suverenlik, müstəqillik və dövlətçilik prinsipinə sadiqlik bir daha təsdiqlənib. Bəyannamədə təşkilatımızın regional sülhün və çoxtərəfli əməkdaşlığın təşviqində konstruktiv platforma kimi rolu vurğulanıb, dezinformasiya, kibertəhlükələr, iqlim dəyişmələri kimi çağırışlara qarşı birgə fəaliyyətin vacibliyi qeyd olunub.

## Gəncə Avtomobil Zavodu yerli istehsalın inkişafı istiqamətində vacib addım atıb

Zavod 2025-ci ilin iyun ayından etibarən kommunal texnikaların konteynerlərinin yığımının 100 faiz yerli istehsal olaraq reallaşdırılmasına start verib.
Azərbaycanın avtomobil sənayesində flaqmanlardan olan Gəncə avtomobil zavodu İstehsalat Birliyi artıq 20 ildən artıqdır ki, ölkənin istehsal sahəsində yeniliklərə imza atmaqda davam edir.
Zavoddan Marja.az-a verilən məlumatda bildirilir ki, 2025-ci ilin iyun ayından etibarən zavodda kommunal texnikaların konteynerlərinin yığımının 100 faiz yerli istehsal olaraq reallaşdırılmasına başlanılıb. Belə ki, sifarişə uyğun olaraq istənilən avtomobilin bazasında müəssisədə istəkdən asılı olaraq istənilən kubametr tutumlu kommunal maşınların yığımı həyata keçirilir.
Qeyd edilib ki, bu günədək Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sifarişinə uyğun olaraq KAMAZ-ın bazasında 45 ədəd 20 kubmetr tutumlu kommunal maşınlar yığılaraq təhvil verilib. Kommunal avtomobillərin konteynerləri baza hissəsindən rənglənməyə qədər müəssisədə yerli mütəxəssislər tərəfindən həyata keçirilir.
*"Bu da onu deməyə əsas verir ki, Gəncə avtomobil zavodu istehsalat birliyində artıq texnikaların yığılması ilə yanaşı, yerli istehsal sahələri də inkişf etdirilir. Bunun üçün müəssisədə ən son texnologiyalardan olan plazma və kəsmə avadanlıqları, əymə və müxtəlif dəzgahlar, müasir qaynaq və digər lazımi avadanlıqlar quraşdırılıb"*, - məlumatda deyilir.
Fəaliyyətini 2004-cü ilin dekabrın 24-də bərpa edən müəssisə bu müddər ərzində minlərlə müxtəlif modeldə və modifikasiyada avtomobillərin və kənd təsərrüfatı texnikalarının, avtobus və müasir elektrobusların, kombaynların yığımını həyata keçirib. Hazırda zavodda sifarişlərə uyğun olaraq müxtəlif modeldə və modifikasiyada kənd təsərrüfatı texnikalarının, traktorların yığımı aparılır. Təkcə bu rəqəmi demək kifayətdir ki, Azərbaycanda 14 300-dən çox Gəncə avtomobil zavodunun istehsal etdiyi traktorlar ölkənin kənd təsərrüfatı sahəsində vətəndaşlara xidmət edir. Hazırda sifarişlərə uyğun müəssisədə Belarusun MTZ və Almaniyanın Deutz-Fahr traktorlarının müxtəlif modellərinin yığımı davam etdirilir.

## Azərbaycanla ABŞ arasında yüksək texnologiyalar, nəqliyyat və logistika sahələrində əməkdaşlıq müzakirə olunub

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov ABŞ-ın Oreync vilayətinin "Lincoln" klubunun beynəlxalq əməkdaşlıq üzrə nümayəndəsi Benni Mor ilə görüş keçirib.
Nazirlikdən bildirilib ki, "Lincoln" klubu Kaliforniyanın ən böyük biznes klublarından biridir və onun missiyası biznes nümayəndələri üçün şəbəkələşmə, öyrənmə və imkanlara çıxış mühiti yaratmaqdır.
Görüşdə Azərbaycan ilə ABŞ arasında yüksək texnologiyalar, nəqliyyat və logistika sahələrində əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Bildirilib ki, ölkəmiz bu sahələrdə ABŞ ilə tərəfdaşlığa böyük önəm verir.
Samir Məmmədov Azərbaycanın rəqəmsal inkişaf istiqamətində əldə etdiyi nailiyyətləri diqqətə çatdırıb. Qeyd olunub ki, genişzolaqlı internetə tam çıxışın təmin olunması, "TİER III" səviyyəli data mərkəzləri, SİMA yeni nəsil rəqəmsal imza həlli və "MyGov" platforması Azərbaycanı "çox yüksək" elektron hökumət reytinqi olan ölkələr sırasına çıxarıb.
ABŞ-ın aparıcı İT şirkətlərindən olan "Epam" ilə birgə "MyGov Business" adlı yeni platforma üzərində əməkdaşlığa start verildiyi, bu platformanın dövlət-biznes münasibətlərində vahid pəncərə funksiyası daşıyacağı bildirilib.

## "Vaşinqton Zirvəsinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır"

"Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır". Bu sözləri Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə çıxışında söyləyib.
*"Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir"*, - deyə dövlətimizin başçısı əlavə edib.

## "Türkiyə Cənubi Qafqazda sülhə və sabitliyə səmimi töhfə verməyə çalışır"

"Türkiyə Cənubi Qafqazda baş verənləri izləməklə yanaşı, həm də bölgədə sülhə və sabitliyə səmimi töhfə verməyə çalışır. Biz avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə imzalanmış Birgə Bəyannaməni bu sahədə müsbət addım kimi qiymətləndiririk. Bu istiqamətdə gələcək təşəbbüsləri səbirsizliklə gözləyirik".
Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə çıxışı zamanı deyib.
Türkiyə lideri Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək Qəbələni "Türk dünyasının qədim mədəniyyətinin əksi" adlandırıb.




Türkiyə Prezidenti 3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü münasibətilə türk dövlətlərinin rəhbərlərini bir daha təbrik edib.
O, Ankaranın Türk dünyasında bütün sahələrdə, o cümlədən müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsinə töhfə verməyə hazır olduğunu bəyan edib. *"Son 16 il ərzində təşkilatımız mühüm uğurlar əldə edib və onlara yeni nailiyyətlər əlavə olunur"*, - deyən Türkiyə lideri "beynəlxalq hüquq böhranı" və "BMT Təhlükəsizlik Şurasının bir çox məsələlərdə fəaliyyətsizliyi fonunda" TDT ölkələri arasında konsolidasiya və əməkdaşlığın vacibliyini vurğulayıb.
Rəcəb Tayyib Ərdoğan hazırkı Zirvə Görüşünün mövzusunun xüsusi aktuallığını vurğulayaraq, gündəm seçimini "çox vaxtında və əhəmiyyətli" adlandırıb.
Türkiyə Prezidentinin sözlərinə görə, TDT digər beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq etməlidir. Bu baxımdan o, Qəbələdə razılaşdırılan "TDT Plyus" formatının əhəmiyyətini vurğulayıb.
Prezident Ərdoğan Türk dünyasının bölgədə sabitliyin və təhlükəsizliyin təmin edilməsində daha fəal rol oynaya biləcəyini qeyd edib.

## Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin təməli qoyulub




Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar.
Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisi 1 hektardan çox olacaq. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Burada eyni vaxtda 500 nəfər ibadət edə biləcək.
Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində Azərbaycan dövlətinin gördüyü işlərə TDT-yə üzv və müşahidəçi ölkələr də öz töhfələrini verir. Belə ki, Türkmənistan tərəfindən Füzulidə məscidin tikintisi ilə yanaşı, bu rayonda Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına məktəbin, Qazaxıstan tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Qırğızıstan tərəfindən Manas adına məktəbin tikilib istifadəyə verilməsi, Macarıstan tərəfindən Cəbrayılda məktəb binasının tikilməsi, Türkiyə şirkətlərinin bir çox tunel, körpü və yolların inşasında iştirakı bunun əyani göstəricisidir.

## Azərbaycan-Oman Birbaşa İnvestisiya Fondu yaradılır

İqtisadiyyat naziri Mikayıl Cabbarov Oman Sultanlığına səfəri çərçivəsində bu ölkənin iqtisadiyyat naziri Said bin Məhəmməd bin Əhməd Al Saqri ilə görüşüb.
Nazirlikdən bildirilib ki, görüşdə Azərbaycan ilə Oman Sultanlığı arasında münasibətlərin yüksək səviyyədə olduğu, 30 ildən artıq diplomatik əlaqələrə, güclü İslam həmrəyliyinə və qarşılıqlı etimada əsaslanan tərəfdaşlığın mövcudluğu vurğulanıb.
İqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi, müqavilə-hüquq bazasının genişləndirilməsinin ikitərəfli əməkdaşlıqda önəmi qeyd olunub. Azərbaycan-Oman Birgə Biznes Şurası və İnvestisiya Əməkdaşlığı üzrə İşçi Qrupunun yaradılmasının iqtisadi əməkdaşlığın inkişafında rolu diqqətə çatdırılıb.
Ticarət və investisiya əlaqələrinin inkişafı üçün geniş potensialın olduğu və bu istiqamətdə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunub. Azərbaycanda yaradılmış investisiya imkanları, o cümlədən işğaldan azad edilmiş ərazilərdə, Ələt Azad İqtisadi Zonası və digər sənaye zonalarında sahibkarlığın inkişafı üçün tətbiq olunan güzəştlər barədə məlumat verilib. Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaşıl enerji zonaları elan edilib, bu ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, irimiqyaslı layihələrin icrası, nəqliyyat-logistika imkanlarının genişlənməsi regionun inkişafında mühüm rol oynayır. Vurğulanıb ki, Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ölkəmizi regional ticarət və logistika mərkəzinə çevirib və bu, Azərbaycan-Oman iqtisadi əməkdaşlığının inkişafı üçün əlavə imkanlar yaradır. Görüşdə iqtisadi əlaqələrin daha da gücləndirilməsi, ticarət və investisiya sahəsində əməkdaşlıq potensialının reallaşdırılması, enerji, sənaye zonaları, turizm, KOB və tranzit sektorunda birgə fəaliyyətin təşviqi imkanları nəzərdən keçirilib.
Görüş çərçivəsində Oman İnvestisiya Qurumu və Azərbaycan İnvestisiya Holdinqi arasında Azərbaycan-Oman Birbaşa İnvestisiya Fondunun yaradılması ilə bağlı Səhmdarlar Müqaviləsi imzalanıb.

# Çin ilə iqtisadi tərəfdaşlıq imkanları və perspektivlər müzakirə edilib



İxracın və İnvestisiyaların Təşviqi Agentliyində (AZPROMO) Çin Xarici İnkişaf Assosiasiyasının prezidenti He Jenveyin rəhbərlik etdiyi Çin nümayəndə heyəti ilə görüş keçirilib.

AZPROMO-dan bildirilib ki, görüş zamanı agentliyin icraçı direktorunun müavini Tural Hacılı qurumun fəaliyyət istiqamətləri və 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun yekunlarına dair məlumat verib.

Çin tərəfi forumun yüksək səviyyədə təşkil olunmasını bildirərək, gələcəkdə belə təşəbbüslərdə daha geniş heyətlə iştirak etmək niyyətində olduqlarını diqqətə çatdırıb.

Görüş çərçivəsində ikitərəfli iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi, assosiasiya və tərkibinə daxil olan şirkətlərlə işgüzar əlaqələrin qurulması perspektivləri müzakirə edilib, qurumlar arasında əməkdaşlığın hüquqi çərçivəsinin müəyyən edilməsi üzrə təkliflər irəli sürülüb.

# Bank sektoru üzrə 56,7 milyon manat məbləğində silinmə baş verib

Cari ilin ilk 6 ayı ərzində bank sektoru üzrə 56,7 milyon manat məbləğində silinmə baş verib.

Mərkəzi Bankdan bildirilib ki, silinmələr əsasən istehlak portfeli üzrə olub. Belə ki, dövr ərzində silinmələrin 61,1 faizi (34,61 milyon manat) istehlak portfeli üzrə, 38,8 faizi (22 milyon manat) isə biznes portfeli üzrə olub.

Bank sektoru üzrə kredit riskləri idarəolunan səviyyədədir. 2025-ci ilin I yarımili ərzində qeyri-işlək portfelin həcmi mütləq ifadədə 20,1 faiz (132 milyon manat) artaraq 787 milyon manat təşkil edib. Qeyri-işlək portfeldə artımın 75 milyon manat hissəsini istehlak kreditləri, 56 milyon manat hissəsini biznes kreditləri, 1 milyon manat hissəsini isə ipoteka kreditləri hesabına baş verib. Nəticədə, qeyri-işlək portfelin cəmi kredit portfelində payı yarımil ərzində 0,4 faiz bəndi artaraq 2,8 faiz təşkil edib.

# "5 manat aylıq gəliri olan ayda 6 manat ödəniş etməməlidir"

“Biz borclanmaya qarşı deyilik, sadəcə borclanma sağlam formada olmalıdır - 5 manat aylıq gəliri olan ayda 6 manat ödəniş etməməlidir”.

Bunu AMB-nin baş direktoru Şahin Mahmudzadə bildirib.

O əlavə edib ki, Azərbaycan Mərkəzi Bankının (AMB) əsas məqsədi izafi borclanmanın qarşısını almaqdır: "Gördüyümüz tədbirlər daha çox izafi borclanmanın qarşısını almaq üçündür. Bununla bağlı daha sərt tədbirlər də görülə bilər.

Əhalinin gəlirləri artıb, buna münasibətdə borclanma da artıb, ancaq region ölkələrindən aşağı səviyyədədir".

# Azərbaycanın valyuta ehtiyatları 80 milyard dollara çatıb




Bunu Azərbaycanın Maliyyə Nazirinin birinci müavini Anar Kərimov Bakıda “Halal Business Forum” forumunda çıxışı zamanı deyib.

O qeyd edib ki, dünyada İslam maliyyəsi dinamik şəkildə inkişaf edir və onun ümumi həcmi artıq 4 trilyon ABŞ dollarını ötüb. Ədalət, risklərin bölüşdürülməsi və aktivlərlə təminat prinsiplərinə əsaslanan İslam maliyyəsi sabit və etik maliyyə sisteminin formalaşmasına töhfə verir.

Ə.Kərimovun sözlərinə görə, Azərbaycan makroiqtisadi sabitliyin və şəffaflığın möhkəmləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə edib.

*“Dövlət başçısının rəhbərliyi altında biz səmərəlilik, büdcə intizamı və rəqəmsallaşmaya əsaslanan bir sistem qurmuşuq. Bu gün Azərbaycan büdcə şəffaflığı üzrə dünya reytinqində 23-cü yeri tutur”*, - deyə o vurğulayıb.

Nazir müavininin sözlərinə görə, ölkənin valyuta ehtiyatları təxminən 80 milyard ABŞ dolları təşkil edir, xarici dövlət borcu isə təqribən 5 milyard dollardır.

*“Ehtiyatlarımız borcumuzu 16 dəfə üstələyir”*, - deyə Ə.Kərimov bildirib.

# İslam bankçılığı məhsulları Azərbaycan bazarında təqdim olunacaq

Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) Maliyyə sektorunun dayanıqlı inkişafı departamentinin direktoru Rüstəm Tahirov II Azərbaycan Halal Biznes (AZHAB) Forumunda bildirib.

Onun sözlərinə görə, Mərkəzi Bank beynəlxalq təcrübəni nəzərə alaraq mərhələli və praqmatik strategiya qəbul edib: "Bu strategiyaya əsasən, ilkin mərhələdə İslam bankçılığı məhsulları ənənəvi banklar daxilində “İslam pəncərəsi” modeli vasitəsilə təqdim olunacaq. Bu, bazarda tələbatın sınaqdan keçirilməsinə, iştirakçıların məhsullarla tanış olmasına və gələcəkdə daha geniş həcmli məhsul və həllərin tətbiqinə şərait yaradacaq".

AMB rəsmisi vurğulayıb ki, bu mərhələli strategiyanın icrası üçün Mərkəzi Bank konkret yol xəritəsi müəyyənləşdirib və bu xəritəni dörd əsas istiqamətə bölmək olar: "Birincisi, ilkin mərhələdə tətbiq olunacaq məhsulların müəyyənləşdirilməsidir. Bunun üçün Mərkəzi Bank banklarla, sənaye assosiasiyaları və ekspertlərlə müzakirələr apararaq müştəri tələblərini və bazar ehtiyaclarını qiymətləndirib, tətbiq oluna biləcək məhsulların siyahısını müəyyən edib.

Bu mərhələ artıq tamamlanıb. İndi isə həmin məhsulların tətbiqini təmin etmək üçün hüquqi və tənzimləyici baza hazırlanır. Bu, Mülki Məcəllə, Vergi Məcəlləsi, Banklar haqqında qanun və digər normativ aktlara dəyişikliklər əhatə edir. Həmin dəyişikliklər bank sektoruna təqdim olunub və hazırda onlardan gələn rəy və təkliflər toplanır. Mərkəzi Bank bu rəyləri yekunlaşdıraraq ilin sonunadək hökumətlərarası razılaşdırma mərhələsinə təqdim etməyi planlaşdırır".

# Azərbaycan ilə Almaniya arasında iqtisadi əməkdaşlıq üçün möhkəm hüquqi baza var

“Dövlətlər arasında əməkdaşlığa dair 80 saziş imzalanıb ki, bunlar da qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin artmasına böyük imkanlar yaradır”.

Bu sözləri Almaniya-Azərbaycan ixracat və maliyyə konfransı çərçivəsində keçirilən “Maliyyə kəsişməsində innovasiyalar və texnologiyalar” mövzusunda panel iclasında çıxışı zamanı Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müşaviri Sevil Yəhyayeva deyib.

Onun sözlərinə görə, bundan sonra AZPROMO Almaniya ilə Azərbaycanın iş adamları və şirkətləri arasında körpü rolunu oynayacaq.

*“Bildiyiniz kimi, bu ilin may ayında Alman Şərq Biznesi Assosiasiyasının sədri Mixael Harmsın səfəri zamanı 2025–2026-cı illəri əhatə edən yeni yol xəritəsi imzalanıb. Bu sənəd elektrik avtobuslarının yığılması, dəmir yolu infrastrukturunun modernləşdirilməsi, eləcə də hidrogen energetikası, suyun təmizlənməsi və duzsuzlaşdırılması sahələrində layihələri əhatə edir”*, - deyə S.Yəhyayeva vurğulayıb.

# Sənaye parklarının rezidentləri indiyədək 525 milyon manat vəsaitə qənaət ediblər



İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye parklarında fəaliyyət göstərən sahibkarlara ümumilikdə 1805 ədəd, cari ilin 8 ayında isə 210 ədəd təsdiqedici sənəd verilib.

İZİA-dan bildirilib ki, bu sənədlər əsasında rezidentlər sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində ümumilikdə 524,5 milyon manatdan çox, 2025-ci ilin yanvar-avqust aylarında isə 19,5 milyon manatdan artıq şəxsi vəsaitlərinə qənaət ediblər.

Qeyd edək ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar.

# Bakıda II Azərbaycan Halal Biznes Forumunun 1-ci günü yekunlaşıb

İqtisadiyyat Nazirliyinin dəstəyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə Azərbaycan Halal Biznes (AZHAB) Forumunun 1-ci günü yekunlaşıb.

Bu il ikinci dəfə keçirilən forum “Halal sənaye sürətlə dəyişən dünyada dayanıqlılığın mənbəyi kimi” mövzusuna həsr olunub.

Forumda 30-dan çox ölkədən rəsmi şəxslər, ekspertlər, akademik dairələrin nümayəndələri, iş adamları iştirak edib.

AZHAB Forumunun məqsədi investisiya və ticarət sahəsində yeni əməkdaşlıqların qurulmasına, fikir və təcrübə mübadiləsinə töhfə vermək, Azərbaycana və regiona xarici sərmayələrin cəlb edilməsini təşviq etməkdir.

Forum Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, İslam Əməkdaşlıq Təşkilatı (OIC), İslam Ölkələri üzrə Statistik, İqtisadi, Sosial Araşdırmalar və Təlim Mərkəzi (SESRIC), İslam ölkələri üçün Standartlar və Metrologiya İnstitutu (SMIIC), İslam Ticarət Palatası Halal Xidmətləri və “Caspian Event Organisers” MMC-nin tərəfdaşlığı, “ATENA” MMC-nin və “Bilgə Qrup”un sponsorluğu ilə keçirilib.




Tədbirdə çıxış edən Azərbaycanın iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bildirib ki, 2025-ci ilin yanvar-avqust aylarında Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələr arasında ticarət dövriyyəsi təxminən 6 milyard ABŞ dolları təşkil edib.

*“Azərbaycan İƏT-nin ən fəal iştirakçılarından biri olaraq qalır və təşkilata üzv dövlətlərlə siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafına böyük önəm verir”*, - deyə o vurğulayıb.

# Halal ticarət vicdanlı sahibkarlığın yeni mərhələsidir

“Artıq ikinci ildir ki, təşkil edilən AZHAB Forumunun məqsədi yalnız iqtisadi əlaqələrin qurulması deyil, həm də halal ticarətin mahiyyətini — dürüstlük, etibar və ədalət prinsiplərini yenidən gündəmə gətirməkdir. Bu dəyərlər olmadan nə real bazar inkişaf edə bilər, nə də sahibkarlıqda davamlı uğur mümkündür”.

Bu sözləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov II Azərbaycan Halal Biznes Forumunda (AZHAB) çıxışı zamanı deyib.

Onun sözlərinə görə, halal ticarət sadəcə məhsulun və ya xidmətin tərkibi ilə deyil, insanın niyyəti və davranışı ilə ölçülür.

“Azərbaycan bu dəyərləri əsrlər boyu yaşadan, eyni zamanda, multikulturalizm yanaşmasını qoruyan və inkişaf etdirən ölkə kimi tanınır. Biz çalışırıq ki, halal prinsiplər sahibkarlarımız üçün yalnız dini və ya etik anlayış kimi yox, həm də müasir biznes modeli kimi formalaşsın. Çünki dürüst sahibkarlıq — həm müştərinin, həm tərəfdaşın, həm də cəmiyyətin etimadını qazanmağın ən güclü yoludur. Biz bu istiqamətdə halal sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi, sahibkarlara təlim və məsləhət xidmətləri, eləcə də halal brendin beynəlxalq tanıdılması üzərində çalışırıq. Hazırkı AZHAB Forumu da açıq, ədalətli və etibarlı ticarət əlaqələri qurmaq, ölkəmizi halal biznesin regional mərkəzinə çevirmək kimi səylərə töhfə verir. Bu gün forumda 30-dan çox ölkədən nümayəndələrin iştirakı göstərir ki, Azərbaycan halal biznes ekosistemində regional mərkəzə çevrilməkdədir. Bu əməkdaşlıq həm də “yaşıl iqtisadiyyat”, “davamlı sahibkarlıq” və “etik ticarət” kimi yeni iqtisadi fəlsəfələrin inkişafına xidmət edir”, - deyə KOBİA sədri vurğulayıb.

# UNUTMAYAQ Kİ, UNUDARLAR...

*Akademik İmam Mustafayevin xatirəsinə*

*(əvvəli 36-38-ci saylarımızda)*

Eyni zamanda İmam Mustafayevin tövsiyələri ilə Ali Sovetin Rəyasət Heyətinin sədri öz fəaliyyəti dövründə ədəbiyyat və incəsənət xadimlərinə dəstək verir, yerli mədəniyyətin təşviqi, teatrların və yazıçıların fəaliyyətinə dövlət səviyyəsində diqqət göstərilməsini təmin edir, xüsusilə Azərbaycan mədəniyyətinin sovet məkanında tanıdılması istiqamətində böyük işlər görürdü. Qeyd etmək lazımdır ki, 1958-ci ildə Mirzə İbrahimov vəzifədən kənarlaşdırıldıqdan sonra da millətçilik hərəkatının səngimədiyini, əksinə, daha da gücləndiyini görən «mərkəz» 1959-cu ildə İmam Mustafayevin gedən proseslərin əsas hərəkətverici qüvvəsi olduğunu başa düşdü və onu müxtəlif bəhanələrlə Birinci katiblikdən uzaqlaşdırdı.

İmam Mustafayevin nəcibliyini, vətənpərvərliyini və yüksək insani keyfiyyətlərini göstərən amillərdən biri də onun xalqımızın görkəmli şəxsiyyətlərinə, alimlərinə, ziyalılarına olan münasibəti idi. Məsələn, 1962-ci ildə xalqımızın böyük oğlu Mirzə Ələkbər Sabirin tamam olacaq 100 illik yubileyini ləyaqətlə qeyd etmək üçün hələ yubileyə 5 il qalmış, 1957-ci ildə xüsusi sərəncam imzalamış, müvafiq qurumlara onun kitablarının çap edilməsi, irsinin tədqiq edilməsini tapşırmış, Sabirin adına böyük parkın salınması barədə göstəriş vermişdir. Bu günə kimi şəhərimizin ən gözəl abidələrindən biri hesab edilən Sabirin heykəli şəxsən İmam Mustafayevin tapşırığı və qayğısı ilə heykəltaraş Cəlal Qaryağdı, memar Ənvər İsmayılov və Qəzənfər Əliyev tərəfindən hazırlanmış, Bakının ən gözəl yerində - Qoşa qala qapılarının yanında möhtəşəm bir park salınmış, respublika rəhbərinin iştirakı ilə 1958-ci il aprelin 30-da həmin heykəlin və parkın təntənəli açılış mərasimi keçirilmişdi.

Yaxud 1950-ci ildə əsassız təqiblərə məruz qalaraq intihar etmiş görkəmli ictimai xadim, Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, İctimai elmlər bölməsinin sədri, BDU-nun Fəlsəfə kafedrasının müdiri, Azərbaycan Sovet Ensiklopediyasının Baş redaktoru, Partiya Tarixi İnstitutunun direktoru, ilk dəfə Bəhmənyar, Nizami Gəncəvi, Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabinin fəlsəfi görüşləri haqqında ciddi tədqiqatlar apararaq «XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən» adlı məşhur əsər yazmış, dövrünün ən yüksək mükafatlarının laureatı olmuş filosof, akademik Heydər Hüseynova münasibəti bir nümunə ola bilər.



O, hakimiyyətə gələndə Heydər Hüseynov artıq dörd il idi ki, vəfat etmişdi. Çoxları tərəfindən unudulmuş, bütün titulları əlindən alınmış, az qala kimsəsizlər qəbiristanlığında dəfn edilmiş, ailəsi ciddi təqiblərin məngənəsində boğulan Heydər Hüseynovun böyük xidmətləri İmam Mustafayevin yaxşı yadında idi. Lakin yalnız xatırlamaq kifayət deyildi, kənd təsərrüfatından kriminal hadisələrə, Moskvanın təzyiqlərindən yerli məmurların idarə edilməsinə, Sumqayıt Alüminium Zavodunun istismara verilməsi, həmin şəhərdə elmi-tədqiqat institutları və mədəniyyət mərkəzlərinin tikilməsi, şəhər infrastrukturunun inkişaf etdirilməsi, Mingəçevir Su Elektrik Stansiyasının istifadəyə verilməsinə kimi minlərlə problemin arasında Heydər Hüseynova da vaxt ayırmaq lazım idi, o, bir vətəndaş kimi bunu böyük ləyaqətlə etdi. İlk növbədə onun rəsmi bəraət qazanmasına nail oldu, 1956-cı ildə cəsədinin qalıqları tibbi ekspertizadan keçirildikdən sonra adi qəbiristanlıqdan Fəxri xiyabana köçürüldü, altı ildən sonra ilk dəfə qəbirüstü abidəsi ucaldıldı. Ailəsini təqiblərdən azad etdirib onların mənzil şəraitini yaxşılaşdırdı, evinə o dövr üçün çox böyük hadisə olan telefon çəkdirdi (deyilənə görə, telefon çəkiləndən sonra Heydər Hüseynovun evinə ilk zəng edən İmam Mustafayev olmuşdur), ailəyə xüsusi təqaüd təyin etdi, qısası, onların son 7-8 ildə çəkdikləri mənəvi-psixoloji vəziyyəti yüngülləşdirməyə çalışdı. Bu müddətdə Heydər Hüseynovun yaşadığı binaya xatirə lövhəsi vuruldu, onun kitabları böyük tirajlarla çap edildi, Elmlər Akademiyasından xaric edilməsi haqqında qərar ləğv edildi, biblioqrafiyası nəşr olundu. Bu reabilitasiya proqramlarının həyata keçirilməsi İmam Mustafayevin nə qədər alicənab, vətənini sevən, nəcib bir şəxsiyyət olduğunu bir daha təsdiq edir.



*professor Misir Mərdanov*

# “Gənclik və maarifçilik” İctimai Birliyi




"Yaşıl dünya" anlayışları” adlı layihə çərçivəsində eyni adlı kitab nəşr olunmuşdur.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Gənclik və Maarifçilik” İctimai Birliyi tərəfindən icra olunan “Yaşıl dünya anlayışları” adlı layihə uğurla başa çatdırılmışdır. Layihə çərçivəsində eyni adlı kitabça hazırlanaraq geniş ictimaiyyətin istifadəsinə təqdim olunmuşdur.

Yeni nəşr 47 səhifə həcmində olub, “yaşıl dünya” konsepsiyasına dair həm milli, həm də beynəlxalq elmi terminologiyada işlədilən anlayışları sadə və hər kəs üçün başadüşülən formada izah edir. Kitabçada təqdim olunan materiallar həm elmi əsaslara söykənir, həm də praktik tövsiyələrlə zənginləşdirilmişdir. Bu səbəbdən nəşr təkcə gənclər üçün deyil, eləcə də ekoloji mövzulara maraq göstərən geniş oxucu auditoriyası üçün faydalı mənbə kimi nəzərdə tutulmuşdur.

Layihənin əsas məqsədi gənc nəslin ekoloji dəyərlərə həssas münasibətini formalaşdırmaq, ekoloji təmiz həyat tərzinin üstünlüklərini təbliğ etmək, “yaşıl şüur”un cəmiyyətin bütün təbəqələri arasında yayılmasına təkan vermək və ümumi ekoloji savadlılıq səviyyəsini yüksəltməkdir. Kitabçada təqdim olunan nümunələr, izahlar və praktiki tövsiyələr oxuculara həm nəzəri biliklər qazandırır, həm də gündəlik həyatda daha məsuliyyətli və ekoloji yönümlü davranış vərdişləri formalaşdırmağa kömək edir.

“Gənclik və Maarifçilik” İctimai Birliyi hesab edir ki, bu layihə ekoloji mədəniyyətin inkişafına, ətraf mühitin qorunmasına və davamlı gələcək naminə həyata keçirilən dövlət siyasətinin dəstəklənməsinə mühüm töhfə verəcəkdir. İctimai Birlik bu cür təşəbbüslərin gələcəkdə də davam etdirilməsini vacib hesab edir və cəmiyyətin bütün üzvlərini yaşıl dünyanı birlikdə qurmaq üçün fəal iştirak etməyə çağırır.

# Azərbaycanın “yaşıl təşəbbüs”ləri “Siemens Energy” üçün yeni imkanlar açır

“Azərbaycanın “yaşıl təşəbbüs”ləri “Siemens Energy” üçün əməkdaşlıqda yeni imkanlar açır və şirkət bu imkanlardan yararlanmağa hazırdır”.

Bunu “Siemens Energy Global GmbH & Co. KG”nin Türkiyə, Mərkəzi Asiya və Qərbi Avropa üzrə vitse-prezidenti Maksim Zubov “Maliyyə kəsişməsində innovasiyalar və texnologiyalar” mövzusunda İxracın Maliyyələşməsi üzrə Yüksək Səviyyəli Almaniya-Azərbaycan Konfransında deyib.

O, “Siemens”in tarixən Azərbaycanın neft-qaz sektorunda təmsil olunduğunu diqqətə çatdırıb.

***“Şirkətin yerli elektrik stansiyalarında qaz turbinləri var. Bu, bizim buradakı fəaliyyətimizin bir hissəsidir. Bununla yanaşı, biz “Siemens”in elektrik və digər enerji avadanlıqlarını da təchiz edirik. Fəaliyyətimizin əhəmiyyətli hissəsi xidmət sahəsinə yönəlib, çünki infrastrukturun və quraşdırılmış sistemlərin baxımı ölkədə uzunmüddətli mövcudluğun və müştərilərlə əlaqələrin qorunmasının əsasını təşkil edir”,*** - deyə M.Zubov bildirib. Onun sözlərinə görə, “Siemens Energy” qlobal enerji keçidinə fəal şəkildə töhfə verir və bu sahədə liderlərdən biridir.

# Orta Dəhlizin aktuallığı daha da artır



Bunu “Rhenus Logistics Azerbaijan LLC”nin idarəedici direktoru Katerina Zuban “Maliyyə kəsişməsində innovasiyalar və texnologiyalar” mövzusunda İxracın Maliyyələşməsi üzrə Yüksək Səviyyəli Almaniya-Azərbaycan Konfransında deyib.

“Orta Dəhliz və ya Transxəzər nəqliyyat dəhlizi ildən-ilə daha mühüm və aktiv marşruta çevrilir, bu isə yeni həllər və resurslar tələb edir. Bizim 2014-cü ildə Azərbaycana gəlişimizdən etibarən logistika sahəsində çoxsaylı dəyişikliklər və inkişaflar müşahidə olunur. Son 10 ildə ölkədə bir çox yeni logistika mərkəzləri və infrastruktur həlləri yaradılıb”, - deyə o qeyd edib.

K.Zuban bildirib ki, yeni obyektlər arasında Avropa və Asiyanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu da var. Bundan başqa, paytaxt ətrafında Abşeron Logistika Mərkəzi və Ələt Azad İqtisadi Zonasını əhatə edən logistika mərkəzləri də sürətlə inkişaf edir.

# İqtisadiyyat Nazirliyi indiyədək 610-dan artıq layihəyə investisya təşviqi sənədi verib

İqtisadiyyat Nazirliyi tərəfindən tekstil sahəsinə bir sıra dəstək tədbirləri həyata keçirilib. Bunlardan ən əsası sənaye parkları, sənaye müəssisələrinin yaradılması və orada fəaliyyət göstərən sahibkarların dəstəklənməsidir.

Trend xəbər verir ki, bu fikirləri "Tekstil Sektorunun İnkişafı və Qlobal İnteqrasiyasının Təşviqi" seminarında İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin sektor müdiri Vüsal Bağırov çıxışında deyib.

Nazirlik rəsmisi qeyd edib ki, ölkəmizdə 9 sənaye parkı və 4 sənaye məhəlləsi mövcuddur. Bunlardan biri Mingəçevir Sənaye parkıdır ki, məhz tekstil sənayesinin inkişafı məqsədilə yaraılıb. ***“Burada digər sənaye parklarında olduğu kimi 10 illik vergidən və gömrük azad olunmaları tətbiq olunur. Həmçinin, dövlət tərəfindən infrasturuktur təminatı verilir. Bundan başqa pambıqçılığında inkişafı məqsədilə, pambıq sahələrinin salınması üçün texniki avadanlıqlarla bağlı dövlət tərəfindən subsidiyalar verilir”.***

V.Bağırov bidlirib ki, işğaldan azad olunmuş ərazilərdə 2023-cü ildən 10 illik vergi və gömrük azadolunmaları tətbiq edilir. Bunlardan toxuculuq məhsulları və geyim məhsulları istehsalçıları məhz həmin kateqoriyaya aid edilir ki, onlar bu vergidən və gömrükdən azadolunmalara aiddir. ***“Modernləşmə ilə bağlı investisiya təşviqi mexanizmi mövcuddur. Həmin mexanizm 2016-cı ildən tətbiq olunur. Bu mexanizm sayəsində sahibkarlar 7 illik azadolunmalar əldə edirlər”.***

Nazirlik rəsmisi bildirib ki, indiyədək 610-dan artıq layihəyə investisya təşviqi sənədi verilib.

# Sığorta sektorunun aktivləri açıqlanıb

Cari ilin birinci yarımili ərzində sığorta sektorunun aktivləri 4,5 faiz (93 milyon manat) artaraq 2,14 milyard manata çatıb.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, aktivlərin 40 faizini (856 milyon manat) dövlət qiymətli kağızları, 28 faizini (600 milyon manat) bank vəsaitləri, 11 faizini (236 milyon manat) qeyri-dövlət qiymətli kağızları, 8 faizini (163 milyon manat) debitor borclar təşkil edir.

Bu ilin birinci yarımili ərzində sektorun öhdəlikləri isə 7,3 faizini (105 milyon manat) artaraq 1,55 milyard manata çatıb. Öhdəliklərin 73 faizi sığorta haqları ehtiyatı, 18 faizi sığorta hadisələri ehtiyatı, 9 faizini digər öhdəliklər təşkil edir.

Sığorta şirkətlərinin investisiya portfeli ötən ilin sonu ilə müqayisədə 5,6 faiz (94 milyon manat) artaraq 1772 milyon manata çatıb. Maliyyə Nazirliyi tərəfindən dövlət qiymətli kağızlarının yeni emissiyasının baş verməməsi sığortaçıların alternativ investisiya alətlərindən istifadə etməsinə təsir edib. Belə ki, investisiya portfelində artım əsasən banklarda pul vəsaitləri (205 milyon manat) və qeyri-dövlət qiymətli kağızları (102 milyon manat) hesabına baş verib.

2025-ci ilin birinci yarımilində sığorta sektoru investisiya fəaliyyətindən 55 milyon manat gəlir əldə edib ki, bu da cəmi gəlirlərin 7,15 faizini təşkil edir.

# ABŞ şirkəti Azərbaycanın enerji sistemində yeni idarəetmə sistemi qurur

“AzərEnerji” ASC ölkədə yeni yaradılan bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını asanlaşdırmaq, idarəetməni qlobal standartlara uyğunlaşdırmaq və enerji sisteminin dayanıqlılığını gücləndirmək məqsədilə ABŞ-ın SEL (Schweitzer Engineering Laboratories) şirkəti ilə birgə yeni layihəyə start verib.

“AzərEnerji”dən AZƏRTAC-a bildirilib ki, layihə çərçivəsində Azərbaycanda WAMS - Geniş Ərazi Monitorinq Sistemi (Wide Area Monitoring System ) və WACS - Geniş Ərazi İdarəetmə Sistemi (Wide Area Control System) texnologiyaları tətbiq ediləcək.

İlk mərhələdə əsas elektrik stansiyaları və qovşaq yarımstansiyalarında 27 ədəd xüsusi ölçü cihazı - PMU quraşdırılır. Bu cihazlar real vaxt rejimində şəbəkədəki gərginlik, cərəyan və tezliyi dəqiq ölçərək məlumatları mərkəzi serverə ötürəcək. Bununla həm Azərbaycanın enerji sisteminə, həm də Rusiya, Gürcüstan və İranla olan enerji əlaqələrinə onlayn nəzarət imkanı yaranacaq. Bu texnologiya qəza risklərini vaxtında aşkar etməyə və onların böyüməsinin qarşısını almağa şərait yaradacaq.

Beləliklə, WAMS sistemi vasitəsilə şəbəkənin vəziyyəti anlıq izlənəcək, sabitlik göstəriciləri, gərginlik dəyişmələri və enerji axınları real vaxtda görünəcək. Bu isə operatorlara daha dəqiq və operativ qərar verməyə, həmçinin bərpaolunan enerji mənbələrinin idarə edilməsini asanlaşdırmağa imkan verəcək.

WACS sistemi isə WAMS-dan daxil olan məlumatlar əsasında şəbəkədə avtomatik idarəetmə tədbirlərini həyata keçirəcək. Bu çərçivədə yükün tənzimlənməsi, generator gücünün dəyişdirilməsi, enerji axınlarının balanslaşdırılması təmin olunacaq, insan müdaxiləsi və qəza riskləri minimuma endiriləcək.

Sadə dillə desək, WAMS şəbəkənin “gözləri” və “qulaqları”dır — vəziyyəti izləyir; WACS isə şəbəkənin “beyni” və “əlləri”dir — qərar qəbul edib tədbir görür.

# «Евразийская хартия многообразия и многополярности в XXI веке»

***(август 2025 г., журнал «Россия в глобальной политике»)***

**(Начало в предыдущем номере)**

ОБСЕ начала фокусировать свою деятельность на продвижении демократизации и надлежащего управления, правах человека и меньшинствах, наблюдении за выборами, а также на предотвращении и разрешении конфликтов. В то же время, эти новые институты ОБСЕ и полевые миссии в особенности, зацикленные на вышеуказанных деликатных политических темах, превратили ОБСЕ в худшую структуру, чем была ее предшественница в форме СБСЕ. Миссии ОБСЕ способствовали тому, что Организация стала значительно отличаться от других региональных объединений, прежде всего в том, что она стала «перегруженной» полевой деятельностью, что конечном итоге сыграло роль в ее растущей нерелевантности. Так, миссии создавались в тех государствах-участниках, которые якобы испытывали проблемы в своем внутреннем развитии. Однако, интересен тот факт, что все эти миссии были открыты исключительно в странах к востоку от Вены, а не в государствах Западной Европы. Как следствие, создалось впечатление, что страны Западной Европы никогда не испытывали проблем с правами человека, правами меньшинств и т. д. При таком подходе ОБСЕ, по сути, ввела в действие рейтинг среди своих государств-участников, которого не существовало в рамках СБСЕ. В теоретическом плане миссии ОБСЕ были призваны содействовать принимающим странам проводить в жизнь различные виды реформ. Однако на практике, опираясь на гуманитарный мандат ОБСЕ, миссии начали вмешиваться во внутренние дела принимающих государств-участников в целях реализации повесток и нарративов, продвигаемых западными странами-участницами ОБСЕ. Таким образом, получается, что ОБСЕ начала реализовывать видение других ключевых западных институтов, таких, как НАТО, ЕС, ОЭСР.

Подводя итог сказанному, приходится констатировать, что Организация по безопасности и сотрудничеству в Европе превратилась в предвзятого международного игрока, не сумев оставаться в рамках своего мандата как нейтральной региональной организации. Республика Беларусь была среди тех, кому пришлось пройти через негативный сценарий взаимодействия с ОБСЕ. Так, мы согласились принять Миссию ОБСЕ в Минске в 1998 году с мандатом на консультирование и оказание содействия Правительству в демократизации и развитии национальных институтов. Миссия, однако, превратилась в предвзятую сторону, поскольку ее глава посол Германии Ганс-Георг Вик активно сотрудничал с оппозицией с тем, чтобы привести ее к власти на президентских выборах 2001 года. У Беларуси не было иного выбора, кроме как попросить ОБСЕ об отзыве Вика. Несколько лет спустя мы решили полностью закрыть Миссию, не усмотрев никаких положительных моментов в ее дальнейшем функционировании для целей нашего внутреннего развития. Таким образом, сложилась парадоксальная ситуация. СБСЕ смогла успешно решать проблемы своего времени. Особенно примечателен в этом успехе тот факт, что СБСЕ удалось добиться результатов в крайне напряженной международной и региональной обстановке. ОБСЕ, со своей стороны, не смогла успешно решать проблемы своего времени. И этот провал особенно заметен на фоне того факта, что он произошел в период более-менее благоприятной международной и региональной конъюнктуры. Способна ли ОБСЕ измениться к лучшему? Мы в Беларуси очень сомневаемся в этом. Организация утратила преимущество, которое было ключевой особенностью в период СБСЕ, — она перестала служить форумом для политического диалога. Вместо этого, она стала местом для политизации дискуссий, а также инструментом давления и влияния, используемым некоторыми государствами-участниками против других.



*М.Рыженков, Министр иностранных дел Беларуси*

Неудивительно, что ОБСЕ не оправдала надежд, связанных с реализацией идеи неделимости безопасности в Европе, как это было отражено в Хельсинкском Заключительном акте. Как следствие, ОБСЕ не смогла предотвратить развал системы европейской безопасности в течении последних нескольких десятилетий, что в итоге привело к все еще продолжающемуся конфликту в Украине. Необходимо признать, что ОБСЕ была, по сути, «захвачена» ее западными государствами-участниками с целью использования Организации в качестве еще одного инструмента для вмешательства во внутренние дела и навязывания политических изменений в тех государствах-участниках, которые отказались принять западные «рецепты» для своего внутреннего развития. Более того, ОБСЕ, по сути, играла на руку Западу в расширении НАТО на восток, не в последнюю очередь, своим негативным вмешательством во внутренние дела стран, входящих в состав бывшей Югославии. Такая политика привела ОБСЕ к кризису идентичности и лишила Организацию стратегической ориентации, которую разделяли бы все ее государства-участники. В этой связи неудивительно, что доверие между государствами-участниками было утрачено, а Организация становится все более неактуальной. Ключевые стратегии для Евразии после окончания Холодной войны

В то время как эксперимент СБСЕ/ОБСЕ представляет собой неудачную попытку консолидировать лишь определенную часть Евразии, период после Холодной войны стал свидетелем появления некоторых идей и стратегий в отношении Евразии в целом. Что особенно интересно, так этот тот факт, что некоторые из наиболее влиятельных и последовательных из этих идей исходили от внешней державы – Соединенных Штатов Америки. Так, окончание Холодной войны создало ситуацию, при которой США остались единственной мировой сверхдержавой. В этой связи Соединенные Штаты начали поиск новой стратегической ориентации, поскольку прежнее концептуальное руководство – концепция сдерживания, подходившая для периода Холодной войны, была бесполезна для новой эпохи. Новая стратегическая ориентация вскоре была представлена в знаменитой речи бывшего советника по национальной безопасности президента США Клинтона Энтони Лейка в сентябре 1993 года. Речь называлась «От сдерживания к расширению». Позиционируемая как преемница стратегии сдерживания, стратегия расширения ставила цель расширить «мировое свободное сообщество рыночных демократий». В этом стратегия была явно основана на знаменитом тезисе Фрэнсиса Фукуямы о конце истории, поскольку она фактически игнорировала тот факт, что мир был чрезвычайно разнообразен в политических и социально-экономических системах, а также в местных культурах и традициях. Вместо этого стратегия предполагала, что каждая страна по всему миру либо хотела, либо должна быть принуждена принять так называемую демократию и рыночную экономику.

*(Продолжение следует)*

**Источник: www.mfa.gov.by**

# “Сегодня Организация тюркских государств формируется как один из серьезных геополитических центров”




Сегодня Организация тюркских государств – это не просто платформа для сотрудничества, она формируется как один из серьезных геополитических центров.
Об этом сказал Президент Азербайджана Ильхам Алиев в выступлении на 12-м Саммите Совета глав государств Организации тюркских государств (ОТГ).
Подчеркнув, что повышение международного авторитета ОТГ вызывает удовлетворение, глава государства отметил: «Наши общие исторические и этнические корни, единые национально-духовные ценности объединяют нас как одну семью».

# “Крайне важно, чтобы тюркские государства выступали как единый центр силы”

Сегодня мир и безопасность являются основными факторами развития любой страны.
Об этом сказал Президент Азербайджана Ильхам Алиев в выступлении на 12-м Саммите Совета глав государств Организации тюркских государств (ОТГ).
«На фоне современных геополитических вызовов и вызовов безопасности, с которыми сталкивается мир, крайне важно, чтобы тюркские государства, в соответствии с принятой на неформальном саммите в Шуше в прошлом году Карабахской декларацией и темой сегодняшнего саммита - «Региональный мир и безопасность», выступали в качестве единого центра силы», - отметил глава государства.

# “Турция искренне стремится внести вклад в мир и стабильность на Южном Кавказе”

Турция не просто отслеживает процессы на Южном Кавказе, но и искренне стремится внести вклад в обеспечение мира и стабильности в данном регионе. Воспринимаем совместную декларацию, подписанную 8 августа в Вашингтоне с участием лидеров Азербайджана и Армении, как позитивный шаг в этой сфере. Ожидаем дальнейших инициатив в данном направлении.
Об этом заявил Президент Турции Реджеп Тайип Эрдоган, выступая на 12-м Саммите Совета глав государств Организации тюркских государств (ОТГ) в Габале. Турецкий лидер выразил удовлетворение визитом в Азербайджан, назвав Габалу «отражением древней культуры тюркского мира».
Президент Турции вновь поздравил лидеров тюркских государств с 3 октября – Днем сотрудничества тюркских государств. По его словам, Анкара готова способствовать укреплению взаимодействия в тюркском мире во всех областях, в том числе в оборонной сфере.




# “Подписание Декларации между Азербайджаном и Арменией заложило основу для укрепления стабильности”



В это нестабильное время хочу особо отметить недавнее подписание Декларации между Азербайджаном и Арменией.
Об этом заявил Президент Казахстана Касым-Жомарт Токаев на 12-м Саммите Совета глав государств Организации тюркских государств (ОТГ) в Габале.
По его словам, этот исторический документ положил конец конфликту, не находившему своего разрешения более 30 лет, и заложил основу для укрепления стабильности и экономического роста в регионе. «Нынешняя геополитическая ситуация в мире крайне сложна, поэтому тюркским странам необходимо действовать вместе в общих интересах.
Сегодня мировое сообщество признало нас как сильные и сплоченные государства, способные противостоять серьезным вызовам. Многие страны проявляют интерес к деятельности нашей организации. Казахстан поддерживает идею создания формата «Организация тюркских государств+», основной задачей которого будет дальнейшее расширение нашего сотрудничества. Эта инициатива, безусловно, призвана еще больше повысить международный авторитет ОТГ», - сказал Токаев.

# “В Габале мы видим торжество наших общих ценностей, общего наследия и прочного единства”

Сегодня в Габале мы не только участвуем в саммите, но и видим торжество наших общих ценностей, общего наследия и прочного единства.
Об этом сказал Премьер-министр Венгрии Виктор Орбан в выступлении на 12-м Саммите Совета глав государств Организации тюркских государств (ОТГ), проходящем в Габале.
В.Орбан отметил, что, в отличие от Европы, здесь царит уважение к семейным ценностям и верность традициям. «Здесь мы наблюдаем атмосферу, где бережно сохраняются общечеловеческие ценности, царят стабильность и взаимное доверие. Сильные лидеры, участвующие в этом саммите, обмениваются мнениями о совместных проектах и стратегических планах на будущее. Достижения Президента Азербайджана Ильхама Алиева, реализуемые в его стране проекты в области возобновляемых источников энергии, а также то значение, которое он придает миру и сотрудничеству, свидетельствуют о том, что в этом регионе реализуется дальновидная и успешная политика», – подчеркнул Премьер-министр Венгрии.

Tibbdə PR

# HƏKİMLƏRİMİZİ TANIYIN

Mərkəzi Gömrük Hospitalının rəisi-Baş həkim, yüksəkixtisaslı ümumi cərrah, t.e.d. Bəxtiyar Musayevi "Həkimlərimizi tanıyın" rubrikasında Sizə təqdim edirik.

**Dr. Bəxtiyar Musayev** ümumi cərrahiyyə və qastroenterologiya sahəsində, o cümlədən qaraciyər, öd kisəsi və öd axarları, mədəaltı vəzi, qida borusu, mədə, nazik və yoğun bağırsaq, dalaq xəstəlikləri üzrə təcrübəli mütəxəssis olaraq qarın boşluğu üzvləri üzərində bütün növ açıq və laparoskopik əməliyyatları həyata keçirir.



Canımızı çox sevirik, lakin ən çətin və ümidsiz vəziyyətlərdə onlara üz tuturuq. Ağrıyanda, həyatla ölüm arasında qalanda onlara pənah aparır və etibar edirik.

Ağ xalatlı peşə sahibləri gecə-gündüz xəstənin çarpayısının yanından ayaq çəkmədən bilik, bacarıq, zəhmət və təcrübələri hesabına onu həyata qaytarmağa çalışırlar. Xəstə ayağa qalxıb gözünə işıq, üzünə təbəssüm gələndə bəlkə də ən çox sevinən elə ona bu həyatı bəxş edən həkim olur. Görünür, bu müqəddəs peşə sahibləri ona görə çox sevilirlər və onlara ehtiramla yanaşırlar. Hippokrat andı içən xeyirxah peşə sahibləri ən ağır və çıxılmaz vəziyyətlərdə ürəklərdə ümid işığı yandırmaq, şəfasıza şəfa, çarəsizə çarə vermək üçün hər cür zəhmətə qatlaşırlar.

Yüksəkixtisaslı cərrah, Mərkəzi Gömrük Hospitalının rəisi, tibb xidməti polkovniki Bəxtiyar Musayev də həyatını bu nəcib və müqəddəs peşəyə həsr edib.

O uzun illərdir ki, bütün növ açıq və laporoskopik cərrahi əməliyyatlarını yüksək peşəkarlıqla yerinə yetirərək xəstələrə şəfa verir, onlara sağlamlıq bəxş edir. Onun həkim kimi ən üstün keyfiyyətlərindən biri hər bir xəstəyə qayğı ilə yanaşması, onları öz doğması və əzizi kimi qəbul etməsidir. Tibbdə həkimlə xəstənin ünsiyyəti, onunla davranışı və inamı ən mühüm keyfiyyətlərdən biri sayılır. Müasir tibb elmi də sübut edir ki, bəzən mükəmməl tibbi biliklərlə bərabər xəstəyə qarşı göstərilən insani münasibət, ona olan sevgi müalicənin başlıca şərtlərindən sayılır. Bəxtiyar həkimdə olan məhz bu keyfiyyətlər onu xəstələrə daha çox sevdirir.

Bəxtiyar həkim bir alim kimi ölkəmizdə tibb elminin inkişafına da böyük töhfələr verib. O, 50-dən çox elmi məqalənin, 1 ixtiranın, 3 səmərələşdirici təklifin və 4 metodik tövsiyənin müəllifidir. Bəxtiyar Musayev ölkəmizdə endoskopik əməliyyatları icra edən ilk həkimlərdən biri kimi Azərbaycan səhiyyəsində xeyli uğurlara imza atıb. Xüsusilə qeyd etməyə dəyər ki, yüksəkixtisaslı ümumi cərrah Bəxtiyar Musayev 1984-cü ildə ölkəmizdə perkutan endobiliar əməliyyatının ilk icraçısı olub. Onun istedadı və humanist keyfiyyətləri peşəkar cərrah kimi tanınmasında xüsusi dəyər sayıla bilər.

Bəxtiyar həkim həm də uğurlu təşkilatçıdır. Mərkəzi Gömrük Hospitalının rəisi, tibb xidməti polkovniki Bəxtiyar Musayev 3 ilə yaxındır ki, Mərkəzi Gömrük Hospitalının rəisi – baş həkimi vəzifəsini icra edir. Bu müddət ərzində hospital təkcə ölkəmizin deyil, regionun aparıcı tibb müəssisələrindən birinə çevrilib. Hazırda Gömrük Hospitalı ən müasir tibbi avadanlıqları, dərman vasitələri, innovativ laboratoriya avadanlıqları, tibdə informasiya texnologiyaları və s. ilə təmin edilib.

Qeyd etmək lazımdır ki, Bəxtiyar Musayevin rəhbərlik təcrübəsi yalnız Mərkəzi Gömrük Hospitalı ilə məhdudlaşmır. O, uzun illər ərzində Azərbaycanın bir sıra nüfuzlu özəl tibb müəssisələrində baş həkim kimi fəaliyyət göstərib, hər zaman peşəkar idarəçilik bacarığı, strateji baxışı və tibbi xidmətin keyfiyyəti ilə seçilib. Onun rəhbərliyi altında tətbiq olunan yenilikçi yanaşmalar və inkişaf strategiyaları çalışdığı bütün müəssisələrin uğur qazanmasına və yüksək reputasiya qazanmasına səbəb olub.

Həkim peşəkarlığı, təşkilatçılıq bacarığı və nəcib insani keyfiyyətləri ilə rəğbət qazanan tibb elmləri doktoru Bəxtiyar Musayev Hippokrat andına sadiq bir həkim kimi xəstələrin keşiyindədir. Onun həm həkim, həm səhiyyə təşkilatçısı kimi fəaliyyəti gənc tibbi kadrlar üçün əsl örnəkdir.

**Dilarə Zamanova,
Mərkəzi Gömrük
Hospitalının
PR mütəxəssisi**

# "Bakcell" "İnnovasiyalar və süni intellekt" konfransının əsas tərəfdaşı oldu




İnnovasiya lideri "Bakcell" Azərbaycandakı Amerika Ticarət Palatasının (AmCham) təşkilatçılığı ilə keçirilən "İnnovasiyalar və süni intellekt" adlı konfransın əsas tərəfdaşı olub.

Konfransda dövlət qurumları, beynəlxalq təşkilatları, yerli və xarici şirkətlərin nümayəndələri iştirak ediblər. Tədbirin əsas məqsədi Azərbaycanda müxtəlif sənaye sahələrində süni intellekt və innovasiyaların tətbiqlərini müzakirə etmək, dövlət və özəl qurumlar arasında əməkdaşlığı inkişaf etdirmək olub.

"Azərbaycanın süni intellekt hekayəsi – innovasiyaya rəhbərlik edən yerli təşəbbüskarlar" adlı panel müzakirəsində "Bakcell"in baş icraçı direktoru Klaus Müller çıxış edib. O, şirkətin Azərbaycanda telekommunikasiya sahəsində innovasiya və süni intellekt üzrə həyata keçirdiyi yerli və beynəlxalq layihələrdən, eləcə də, "Bakcell"in məhsul və xidmətlərində ən son texnoloji həllərin tətbiq imkanlarından danışıb.

Bundan əlavə, Klaus Müller "İnnovasiya və süni intellektin Azərbaycanın rəqəmsal inkişafına təsiri" adlı dialoq formatında interaktiv fikir mübadiləsində iştirak edib.

"İnnovasiya və süni intellekt "Bakcell"in strateji inkişafının əsasını təşkil edir. Bu istiqamətdə həyata keçirilən sahələrarası əməkdaşlıq fəaliyyəti və davamlı təşəbbüslər milli innovasiya və texnologiya ekosisteminin gücləndirilməsi üçün vacibdir",- deyə o vurğulayıb.

"Bakcell" innovasiyalar və süni intellektin tətbiqini strateji prioritet hesab edir və bu sahədə atdığı addımlarla Azərbaycanın innovasiya ekosisteminin dayanıqlı inkişafına töhfə verir.

# "Bakcell"in meqa lotereyasının qalibi bəlli oldu!

İnnovasiya lideri Bakcell-in süni intellekt əsaslı lotereyası davam edir. Lotereyanın ilk qalibi "iPhone 17" qazanan Rafael İmamverdiyev oldu. Abunəçilər lotereyada hər gün "iPhone 17", hər həftə "Zeekr 001" və sonda "Porsche Cayenne" avtomobili qazanmaq şansı əldə edirlər.

İstifadəçilər lotereyada Bakcellin "Şans" paketlərini əldə edərək qalib olma şanslarını artıra bilərlər. "Şans" paketi istifadəçinin qalib olma şansını 8 dəfəyədək artırır. Əlavə olaraq, hər bir "Şans" paketi ilə iştirakçılar bonus şəbəkədaxili danışıq dəqiqələri qazanırlar. Məsələn, 1 AZN-lik "Şans" paketinə daxil olan 3 şans və 10 şəbəkədaxili danışıq dəqiqəsini *808#3#YES; 5 AZN-lik "Şans" paketinə daxil olan 25 şans və 100 şəbəkədaxili danışıq dəqiqəsini *808#25#YES; 20 AZN-lik "Şans" paketinə isə daxil 150 şans və 400 şəbəkədaxili danışıq dəqiqəsini *808#150#YES nömrəsini yığaraq əldə etmək mümkündür. "Şans" paketləri barədə ətraflı məlumat ilə linkə keçid edərək tanış olmaq olar. 8 oktyabr tarixində lotereyanın ilk "Zeekr 001" avtomobilinin qalibi məlum olacaq. Lotereya haqqında ətraflı məlumatı Bakcell-in rəsmi lotereya səhifəsindən əldə etmək mümkündür: lotereya.bakcell.com.




# Mərkəzi Gömrük Hospitalında "Ortopediya və Tibbi Reabilitasiyada Müasir Yanaşmalar" mövzusunda Elmi-praktiki seminar keçirilib



4 oktyabr 2025-ci il tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi Mərkəzi və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Florence Healthcare İnternational Qrupun dəstəyi ilə "Ortopediya və Tibbi Reabilitasiyada Müasir Yanaşmalar" mövzusunda Elmi-praktiki seminar həyata keçirilib.

Seminarda Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev, müavinləri Nabil Seyidov və Nahidə Mahmudova, Travmatologiya və Ortopediya şöbəsinin rəisi, travmatoloq Ramin Rzayev, Fizioterapiya şöbəsinin rəisi, fizioterapevt-reabilitoloq Səidə Kərimova, İstanbul Florence Nightingale Xəstəxanalar Qrupunun Travmatologiya və Ortopediya şöbəsinin müdiri, travmatoloq-ortoped prof. dr. Azmi Hamzaoğlu, tibb bacısı Özlem Babadağ və Beynəlxalq şöbənin regional direktoru Fuad Ağazadə, o cümlədən müxtəlif tibb müəssisələrinin aparıcı mütəxəssisləri, həkimlər və rezidentlər iştirak ediblər.

Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev salamlama nitqi ilə çıxış edərək Hospital ilə Florence Healthcare İnternational Qrup arasındakı davamlı və peşəkar əməkdaşlıq barədə ətraflı məlumat verib. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən elmi və sosial tədbirlərin vacibliyindən bəhs edən B.Musayev gələcək fəaliyyətlərin də uğurla davam etdiriləcəyinə inandığını söyləyib.

Seminar zamanı Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini Rəşad Mahmudov da çıxış edərək Türkiyə və Azərbaycan arasında bütün sahələrdə olan dostluq və əməkdaşlıq münasibətlərinin vacibliyini qeyd edib. O, mövzunun sosial əhəmiyyəti barədə də fikirlərini bölüşərək, auditoriyanı aktiv iştirakçılığa dəvət edib.

Daha sonra İstanbul Florence Nightingale Xəstəxanalar Qrupunun Travmatologiya və Ortopediya şöbəsinin müdiri, travmatoloq-ortoped prof. dr. Azmi Hamzaoğlu təcrübəsində rastlaşdığı klinik hallar, həyata keçirdiyi mürəkkəb əməliyyatlar barədə geniş təqdimatla çıxış edib və skoliozun ağırlaşması və fəsadları barədə həkim və rezidentlərin suallarını cavablandırıb.

Seminarın sonunda Mərkəzi Gömrük Hospitalı tərəfindən qonaqlara təşəkkürnamələr təqdim edilib. Seminar qrup şəklinin çəkilməsi ilə yekunlaşıb.

Qeyd edək ki, seminardan sonra prof. dr. Azmi Hamzaoğlunun iştirakı ilə şəhid və qazi ailələrinin ödənişsiz tibbi müayinəsi həyata keçirilib. 15 pasiyent müvafiq olaraq müayinədən keçərək zəruri tibbi məsləhətlər alıblar.

**Dilarə Zamanova,
Mərkəzi Gömrük
Hospitalının
PR mütəxəssisi**

# "Laçın" qızıl və gümüş sikkə kolleksiyası təqdim edildi

Azərbaycanın aparıcı dağ-mədən şirkəti "AzerGold" QSC daha bir gümüş və qızıl sikkə kolleksiyasını təqdim edib. Yeni sikkə kolleksiyası füsunkar təbiəti, qədim tarixi ilə seçilən və günü-gündən abadlaşan Laçın şəhərinə ithaf olunub.Sikkənin hazırlanmasında Laçın bölgəsinin mədəni irsinin, sənət ənənələrinin və xalq yaradıcılığının vacib bir hissəsi olan, Qarabağ xalçaçılıq məktəbinə aid "Qasımuşağı" xalçasının naxışlarından istifadə edilib. Sikkənin əsas elementi dövlət rəmzlərinin əsas tərkib hissələrindən biri – səkkizguşəli ulduz və kənarlarındakı Laçın quşunun həndəsi formalı motivlərdir. Laçın quşu azad ruhun, əzəmətin, gücün və cəsarətin rəmzidir. Təsvir həm də Laçın şəhərinin adının mənşəyi ilə bağlı ən geniş yayılmış fərziyyələrdən birinə işarədir. Sikkənin haşiyəsindəki qədim naxış elementləri arasında diqqətli baxışla sezilən, məhsulun incə və zərif şəkildə həkk olunmuş adı - "Lachin" yazısı kompozisiyaya xüsusi məna qatır.



Qeyd edək ki, "Laçın" kolleksiyası "AzerGold" QSC-nin təşəbbüsü ilə istehsal edilən sayca 13-cü kolleksiyadır. Yeni məhsullar ölkəmizdə hasil edilən qızıl və gümüşdən 5,10,20 qram çəkilərdə hazırlanıb. İstehlakçılar kolleksiyanı "AzerGold" QSC-nin Bakı şəhəri, Bülbül prospekti 3 ünvanında yerləşən Satış və Mübadilə Mərkəzindən, eləcə də şirkətin onlayn satış platforması www.azergold.gift -dən sifariş edərək əldə edə bilərlər.

Azərbaycan qızılı və gümüşündən müxtəlif dizaynlarda sikkələr, eləcə də qızıl külçələr ilk dəfə 2018-ci ildə istehsal edilərək, 2019-cu ildən yerli pərakəndə satış bazarına təqdim olunub. Məqsəd ölkəmizin qiymətli metallar bazarının inkişafına təkan vermək və pərakəndə satışı stimullaşdırmaqdır. Qızıl sikkə kolleksiyaları ölkəmizin, onun tarixi, incəsənəti, mədəni irsinin və digər dəyərlərinin təbliğinə xidmət edən unikal hədiyyə seçimi, həm də istənilən zaman milli valyuta ilə mübadilə edilə bilən sərfəli investisiya alətidir.

# "AzerGold" QSC-nin kollektivi şəhid Muxtar Qasımlının xatirəsini yad edib

"AzerGold" QSC-nin Vətən müharibəsində şəhid olmuş əməkdaşı Muxtar Qasımlının şəhadətinin 5-ci ildönümündə məzarı ziyarət edilib. Ziyarətdə iştirak edən QSC-nin rəhbərliyi və kollektivi Muxtar Qasımlının əziz xatirəsinə sonsuz ehtiramını bildirib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.

"AzerGold" QSC-də Mühafizə xidmətində çalışmış Muxtar Qasımlı Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti kimi 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi zamanı ordu sıralarına yazılaraq, Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edib. O, 2 oktyabr 2020-ci ildə ağır döyüşlərin getdiyi Alxanlı kəndində qəhrəmancasına vuraşaraq şəhidlik zirvəsinə ucalıb.



Baş leytenant Muxtar Qasımlı Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərdiyinə görə cənab Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qeyd edək ki, Muxtar Qasımlı ilə yanaşı, "AzerGold" QSC-nin Vətən müharibəsində iştirak etmiş daha bir əməkdaşı – Rauf Əsgərov da Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb.

"AzerGold" QSC Vətən müharibəsində şəhid olan bütün hərbçilərimizi qürurla anır, onların əziz xatirələrinə hörmət və ehtiramını bildirir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500